**Respublika.** - 2024.- 19 oktyabr. - № 230. - S. 6.

# Ekoloji təhlükəsizlik ümumbəşəri məsələdir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi etməsini ölkəmizə göstərilən böyük etimad kimi qiymətləndirmiş, bunu beynəlxalq ictimaiyyətin ölkəmizdə bu sahədə həyata keçirilən işlərə, xüsusilə də "yaşıl enerji" sektorunda fəaliyyətə hörmətin ifadəsi kimi dəyərləndirmişdir.***

Dünya liderlərinin, hökumət rəsmilərinin, alimlərin, QHT-lərin və digər maraqlı tərəflərin bir araya gələcəyi beynəlxalq tədbirdə müzakirə olunan məsələlər sırasında ekoloji təhlükəsizlik məsələləri də diqqət mərkəzində olacaq.

Azərbaycan Texnologiya Universitetinin Ətraf mühitin mühafizəsi kafedrasının dosenti Samir Mahmudovun söhbəti ətraf mühitdə ekoloji tarazlığın normallaşdırılmasında çox mühüm rol oynayan ekoloji təhlükəsizlik məsələlərinə həsr olunub:

- Keçən əsrin sonlarında Azərbaycan müstəqilliyə qovuşduqdan sonra ekoloji təhlükəsizliyə diqqət və qayğı həyati əhəmiyyətli məsələ kimi qəbul edildi və bu sahə ölkənin milli təhlükəsizlik siyasətinin əsas istiqamətlərindən biri kimi dəyərləndirildi. Heç təsadüfi deyildir ki, 1999-cu ildə qəbul olunmuş "Ekoloji təhlükəsizlik haqqında" qanunun 2-ci maddəsində sənədin təsir dairəsi və məqsədi həyati əhəmiyyətli məsələ kimi qeyd edilir. Ətraf mühitin mühafizəsi Azərbaycanın dövlət siyasətinin prioritet məsələlərindəndir. Bu məqsədlə qəbul olunmuş dövlət proqramları ekoloji təhlükəsizliyin təmin olunması sahəsində həyati əhəmiyyətli vacib və mühüm sənəddir.

Ekoloji təhlükəsizlik sistemi təbii və antropogen təhlükələrin ətraf mühitə və insana mənfi təsirini müəyyən bir ehtimalla təmin edən tədbirlər sistemidir. Ekoloji təhlükəsizlik sistemi funksional olaraq bir-birini məntiqi şəkildə tamamlayan və yalnız birlikdə sistemin özünü təşkil edən üç standart moduldan ibarətdir. Bunlar ərazinin hərtərəfli ekoloji qiymətləndirilməsi, ətraf mühitin monitorinqi və idarəetmə qərarlarıdır.

Bu modulların hər biri ərazinin hərtərəfli ekoloji qiymətləndirilməsini, müəyyən bir ərazidə özünü göstərən ekoloji təhlükə amilləri kompleksinin müəyyən edilməsi və qiymətləndirilməsini, ətraf mühitin təhlükələrinə qarşı müqavimətə görə ərazinin rayonlaşdırılmasını və ətraf mühitə təsir edən obyektlərin kadastrının tərtib edilməsi və aparılmasını əhatə edir. Bundan başqa, ekoloji risklərin müəyyən edilməsi və qiymətləndirilməsi, təbii ehtiyatların inventarların, çirklənmiş ərazilərin kadastrının tərtibi və aparılması, davamlı inkişaf göstəricilərinin seçilməsi ətraf mühitin monitorinqi, ətraf mühitə təsir mənbələrinə nəzarət, ekoloji siyasətin formalaşdırılması və başqa ekoloji təhlükəsizlik və digər tədbirlər də qarşıda duran vəzifələrdir. Başqa sözlə, ekoloji təhlükəsizlik, eyni zamanda müəyyən bir ərazidə bir insanın həyat keyfiyyətinin, fəaliyyətinin və təhlükəsizliyinin təmin edilməsi prosesi kimi şərh olunur.

Dünyanı narahat edən qlobal problemlərdən biri də qlobal istiləşmə ilə ekoloji tarazlığın pozulmasıdır. Qlobal istiləşmə təbii formada iqlim dəyişmələri ilə xarakterizə olunsa da, burada əsas amil kimi insanlar tərəfindən dəyişikliklərin yaranması başa düşülür. Bəs qlobal istiləşmənin yaranma səbəbləri nədir?

İstixana qazları sənayedən əvvəl də var idi. Bunlar vulkan püskürmələri, meşə yanğınları və hətta canlı orqanizmlərin nəfəs almasıdır, yəni bu normal bir prosesdir. Digər tərəfdən, indi sənayenin təsiri o qədər böyükdür ki, proses on dəfə sürətlə getdi. Bu da təbiətdə kömür, neft və qazın yanması, meşələrin qırılması, gübrələrdən və pestisidlərdən geniş istifadə, havaya müxtəlif qazların buraxılması və sairə həlli vacib problemlər doğurur.

Elm adamları qeyd edirlər ki, qlobal istiləşmə nəticəsində planetin temperaturunun artması kənd təsərrüfatında təhlükəli problemlər yaradacaq, bir sıra heyvanlar tələf olacaqdır. Ekosistemlərə mənfi təsirin müşahidə olunması, əhalinin yağış sularından asılı olduğu bölgələrdə suyun azalmasının davam etməsi və mövcud suyun keyfiyyətinin pisləşəcəyi, tropik və subtropik bölgələrdə müxtəlif xəstəliklərin artması, buzlaqların əriməsi və müvafiq olaraq dəniz səviyyəsinin yüksəlməsi və bunun nəticəsində sahilyanı ərazilərin su altında qalmasına səbəb olacağı təhlükəsi də var.

Planetin müxtəlif yerlərində hava anomaliyaları daha da pisləşəcək ki, bu da insanların həyatına mənfi təsir göstərəcək. Alimlər ehtimal edirlər ki, dünyanın bəzi yerlərində yağış az, bəzilərində daha çox, üçdəbirində isə eyni miqdarda yağış yağacaq, lakin daha güclü və daha qısamüddətli olacaq. Belə anomaliyalar quraqlığa və daşqınlara səbəb olacaqdır. Noyabrın 11-dən 22-dək ölkəmizin paytaxtı Bakı şəhərində keçirilməsi nəzərdə tutulan COP29 beynəlxalq konfransında qeyd olunan məsələlərin kompleks

həlli istiqamətində qarşıya konkret vəzifələr qoyulacaqdır. Ölkəmizdə artıq "yaşıl dünya" naminə həmrəylik, ekoloji təhlükəsizlik, dayanıqlı inkişaf və digər istiqamətlər üzrə silsilə tədbirlər keçirilir.

Planetin ekoloji durumunun tarazlığının qorunması istiqamətində bütün dövlətlərdə vacib olan işlərin həyata keçirilməsi mütləqdir. Kütləvi qırğın silahları, kimyəvi tərkibli zəhərli qazlar, eləcə də yeraltı enerji mənbələrindən istifadənin azaldılması qarşıya qoyulan hədəflərdəndir. Ona görə də dünya ölkələri arasında sülh və əmin-amanlıq çərçivəsində qarşılıqlı xoşməramlı əlaqələrin qurularaq inkişaf etdirilməsi, külək, su və digər təbii enerji bazalarından istifadə ilə yeni enerji istehsalı texnologiyalarının işlənərək tətbiqi istiqamətində işlər bacarıqla idarə edilməlidir.

Azərbaycan bərpaolunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə külək, günəş potensialından istifadə edilir. Bu, həmçinin ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkə 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji sistemini genişləndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə olaraq 1,50C hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi çərçivəsində öz milli hədəflərini yeniləyəcəkdir

İnanırıq ki, 30 ildən artıq bir dövrdə işğal altında olan torpaqların azad olunması kimi qələbəyə imza atan Azərbaycan dövləti, növbəti uğurları sırasına Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə noyabr ayında keçiriləcək COP29-a ev sahibliyi etməklə dünya ölkələri arasında siyasi və iqtisadi əlaqələrin, ekoloji birliyin, qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsinə öz sanballı töhfələrini verəcəkdir.

***Söhbəti yazdı:***
***Vaqif Tanrıverdiyev***